# Muğam sənətimizin Xanı



*Dünyanın daim diqqət mərkəzində saxladığı, heyrətləndiyi Azərbaycan muğamlarından söhbət açarkən korifey sənətkarımız Xan Şuşinskinin adını çəkmədən sükutla ötüşmək qeyri-mümkündür.*

*Elə bu səbəbdən də biz musiqi xəzinəmizin inciləri olan muğam, təsnif və xalq mahnılarının təkrarolunmaz ifaçısı, böyük el nəğməkarı Xan Şuşinskinin ecazkar səsi və ifaçılıq məharəti haqqında öz mülahizələrimizi söyləməkdə bir qədər çətinlik çəkirik.*

**Yaqut ABDULLAYEVA,**
**ADMİU-nun dosenti, əməkdar artist**

Buna baxmayaraq, vokal dünyasına 60 il parlaq nur saçmış, öz fitri istedadı və qeyri-adi ifaçılıq qabiliyyətilə Azərbaycan milli vokal məktəbinin inkişafı tarixində yeni səhifələr açmış qüdrətli muğam ustası Xan Şuşinskinin əsl pərəstişkarı kimi məhz bu barədə öz şəxsi fikirlərimizi oxucularımıza çatdırmağı lazım bilirik.

Fakt faktlığında qalır: ifaçılıq sənəti yoluna yenicə qədəm basmış gənc bir xanəndə xalq musiqisi xəzinəmizi düzgün dərk edib onun büllur qaynaqlarından məharətlə istifadə etməyi bacarırsa, onu ifa texnikası ilə üzvi surətdə bağlaya bilirsə və bütün bunlar üçün onda potensial imkanlar (geniş diapazonlu gözəl səs, əla vokal texnikası, musiqini düzgün qavramaq qabiliyyəti və s.) vardırsa, o, tezliklə xalq tərəfindən yüksək qiymətləndirilən gözəl bir sənətkara çevrilir. Belələri musiqi tariximizdə çox yetişmiş və yetişməkdədir. Buna misal olaraq biz Azərbaycan milli vokal məktəbinin əsasını qoymuş dahi xanəndə-improvizator Cabbar Qaryağdıoğlunun, bu məktəbin təşəkkülündə, inkişafında və formalaşmasında misilsiz xidmətləri olan Keçəçi oğlu Məhəmmədin, Məşədi Məmməd Fərzəliyevin, Şəkili Ələsgərin, Segah İslamın, Seyid Şuşinskinin və Bülbülün adlarını iftixarla çəkə bilərik. Yuxarıda qeyd etdiyimiz kimi, xalq musiqisi qaynaqlarından məharətlə istifadə edən və vokal sahəsinin bütün imkanlarına yiyələnən bu müğənnilər sözün əsl mənasında böyük sənətkarlardır.

Şöhrəti doğma yurdumuzdan çox-çox uzaqlarda geniş yayılmış bu muğam korifeyləri arasında Xan Şuşinski ən yüksək və şərəfli yerlərdən birini tutur. Bu, əlbəttə, təbiidir, çünki Xanın sehrli səsi, parlaq yaradıcılıq istedadı və qeyri-adi ifaçılıq məharəti onun Hacı Hüsü, C. Qaryağdıoğlu və S.Şuşinski kimi qüdrətli xanəndələrlə bir sırada durmasına böyük imkanlar verirdi. Xan həmin imkanlardan məharətlə istifadə edərək milli ifaçılıq sənətimizin ən uca zirvələrinə qalxa bilmişdir.

Məlumdur ki, səs, ifaçılıq məharəti, vokal texnikası, improvizatorluq qabiliyyəti, hər bir muğamın xarakterinə müvafiq şer-qəzəl seçmək bacarığı, muğam, təsnif və xalq mahnılarının düzgün interpretasiyasını vermək istedadı və yaxşı qaval vurmaq ustalığı xanəndəlik sənətinin əsas şərtlərindəndir. Bunlardan ən əsası, şübhəsiz, geniş diapazonlu, tembr etibarilə yumşaq, təmiz və məlahətli səsdir. Əgər xanəndənin bu cür səsi yoxdursa, o, nə qədər yüksək ifaçılıq məharətinə, əla vokal texnikasına, böyük improvizatorluq qabiliyyətinə və digər keyfiyyətlərə malik olursa-olsun, dinləyicilərə əsla estetik zövq verə bilməz. Xalq musiqisi nümunələrinin və dəyərli bəstəkar mahnılarının bütün incəliklərinin necə deyərlər, "türfə əlamətləri"ni yalnız məlahətli səs vasitəsilə ifadə etmək mümkündür.

Deməli, xanəndəyə ilk növbədə yaxşı səs lazımdır, ifaçılıq ustalığına, vokal texnikasına və yuxarıda göstərdiyimiz digər keyfiyyətlərə isə orta və ali musiqi məktəblərində təhsil almaqla, ustad xanəndələrdən bilavasitə öyrənməklə və nəhayət öz üzərində ciddi, müntəzəm surətdə çalışmaqla yiyələnmək olar.

Xalqımızın dərin hörmət və məhəbbətini qazanmış Xan Şuşinski xanəndəlik sənəti üçün zəruri olan bütün xüsusiyyətləri özündə birləşdirmişdi. O, Azərbaycanın şanlı xanəndələr pleyadasını təmsil edən Hacı Hüsü, Səttar, Bülbülcan, Mirzə Məhəmmədhəsən, Cabbar Qaryağdıoğlu, Məcid Behbudov, Keçəçi oğlu Məhəmməd, Məşədi Məmməd Fərzəliyev, Şəkili Ələsgər, Segah İslam, Əbülhəsənxan və Seyid Şuşinski kimi qüdrətli sənətkarların zəngin ifaçılıq ənənələrinin ən layiqli davamçısı və XX əsrin yetişdirdiyi böyük muğam ustası olmuşdur.

Bir vokalist kimi, Xan musiqi aləmində sözün əsl mənasında qeyri-adi simadır. Əla, iki oktava yarımdan bir qədər artıq diapazon həcmində (fortepianoda böyük oktavanın mayesindən ikinci oktavanın sol sayesinədək!) olan Xanın səsi son dərəcə zil, güclü, parlaq, saf və məlahətli idi. Buna görə də o, görkəmli musiqiçilərin və vokal mütəxəssislərinin daim diqqət mərkəzində olmuş, xüsusi tədqiqat obyektinə çevrilmişdir.

Əlbəttə, Xandan daha güclü səs aparatına (C.Qaryağdıoğlu), daha zəngin vokal səsə (Bülbülcan, M.M.Fərzəliyev) malik olan, səsə dinamik boyalar verməkdə Xandan heç də geri qalmayan, modulyasiyalarda isə ondan daha yüksək məharət göstərən (S.Şuşinski) xanəndələr olmuşdur. Lakin səsin təbii zənginliyinə və təmizliyinə, tembr etibarilə qeyri-adi gözəlliyinə görə heç kəsi onunla müqayisə etmək olmazdı. C.Qaryağdıoğlu və S.Şuşinski istisna edilməklə, heç kimin səsi Azərbaycan muğamlarının milli koloritini, nikbin və mübariz ruhunu, bu möhtəşəm sənət abidələrində parlaq surətdə öz əksini tapmış coşqun ehtirasların təlatümünü və intim duyğuların ülviliyini, insanları yaşamağa, yaratmağa, məna dolu bir ömür sürməyə çağıran əzəmətli intonasiyaların melodik ahəngdarlığını və əlvan musiqi çalarlarının sehrli romantikasını bu cür fövqəladə qüvvə ilə ifa-

